BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2005*

# NAXÇIVAN GƏNCLİYİ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ

H.CƏFƏROV

*Azərbayjanda gənjlər hərəkatının çox mürəkkəb, ziddiyyətli, eyni zamanda mübarizələrlə dolu şərəfli tarixi vardır. Bu gün ölkəmizin milli müstəqillik yolu ilə inamla addımladığı, gənjliyin mütərəqqi jəmiyyət qurujuluğunda fəal iştirak etdiyi bir dövrdə gənjlərimizin keçdiyi həyat yolunu öyrənmək, onun təjrübəsindən bəhrələnmək böyük siyasi, tərbiyəvi və əməli əhəmiyyət kəsb edir.*

*Bu baxımdan Azərbayjan gənjlərinin 1941-1945-ji illərin Böyük Vətən müharibəsi dövründə ön jəbhədəki qəhrəmanlığı və rəşadəti, arxa jəbhədə fədakar fəaliyyəti torpaqları işğal edilmiş, müharibə vəziyyətində yaşayan bir ölkənin gənjləri üçün əsil təjrübə məktəbi olmalıdır.*

*Müharibənin başlanması bütün Azərbayjan gənjləri kimi Naxçıvan MSSR-in gənjlərinin həyatında bir dönüş nöqtəsi oldu. Naxçıvan gənjliyi müharibənin ilk günlərindən başlayaraq misilsiz hünər və rəşadət göstərdilər. Muxtar Respublikanın şəhər və kəndlərində, təsərrüfat və istehsal müəssisələrində, təhsil ojaqlarında keçirilən mitinq və yığınjaqlarda gənj naxçıvanlılar Vətən torpağının hər qarışını müdafiə edəjəklərini bildirirdilər. Gənjlər bu mitinqlərdən sonra döyüşən ordunun sıralarına getmək üçün kütləvi surətdə hərbi komissarlıqlara ərizə ilə mürajiət edirdilər. 1941-ji ilin məlumatına görə muxtar respublikadan 6 min 491 nəfər könüllü olaraq jəbhəyə yola düşmüşdü.*

*Müharibə dövrünün qaydalarına uyğun olaraq muxtar respublikada geniş səfərbərlik həyata keçirildi. Müharibənin ilk həftəsi 5 min nəfərdən çox naxçıvanlı ordu sıralarına çağırıldı. 10 mindən çox əhali isə xalq qoşununa, qırıjı batalyonlara jəlb olundu.[1] Dövrün ağır şərtlərinə, məhrümiyyətlərinə baxmayaraq, hər bir naxçıvanlı gənj orduya getməyi özü üçün vətəndaşlıq borju bilirdi. Elə ailələr var idi ki, oradan müharibəyə bütün kişi üzvləri getmişdi. Məsələn, Ə.Əliyevin 7 oğlu bir gündə ordu sıralarına yola düşmüşdü.[2] Naxçıvanlıların döyüş şüjaətləri haqqında ön jəbhədən alınmış əsgər məktubları diqqətlə oxunur və arxa jəbhədəkiləri ruhlandırmaq üçün geniş təbliğ edilirdi. «Şərq qapısı» qəzetində, rayon qəzetlərində Naxçıvan gənjlərinin öz valideynlərinə göndərdiyi, ata və anaların döyüşən oğullarına yolladıqları məktublar nümunə kimi çap edilirdi. Bu məktubların gənjlərə təsiri baxımından çox müsbət nətijəsi var idi. Belə məzmunlu məktublar arxa jəbhədə çalışan insanlarda ruh yüksəkliyi yaradır və düşmənə nifrət hissini yüksəldirdi. Naxçıvanlı döyüşçülərin qəhrəmanlıqları haqqında gələn xəbərlər isə hamının sevinjinə səbəb olurdu.*

*Naxçıvan torpaqlarının igid oğulları – Sovet İttifaqı qəhrəmanları Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəjəfqulu Rəfiyev, «Şöhrət» ordeninin bütün dərəjələrinə layiq görülmüş Rəhim Rəhimov, əfsanəvi kapitan İsmayıl Sadiqov, general-mayor Akim Abbasov, polkovnik Nemət Kərimov, Mehdi Mahmudov, şair İslam Səfərli, Fərman Quliyev, Ənvər Vəzirov, Yunis Zeynalov, Yaqub Zalov, Əcdər Hajıyev, Kazım Kazımov, Mehdi Bağırov, Baloğlan Rüstəmov, Əli Əliyev, Bəxtiyar Kərimov və başqaları isə Vətən uğrunda döyüşlərdə igidlik və qəhrəmanlıq göstərmişlər. Partizan komandiri Əli Babayev, Buhenvald qəhrəmanı Əkbər Ağayev, Mehdi Hüseynzadənin silahdaşı Sadıq Nadirli və başqalarının Vətəndən uzaqlardakı qəhrəmanlıqları onların adlarını əbədiləşdirmişdir.[3]*

*Müharibənin ilk günlərindən başlayaraq Naxçıvanın igid qadınları öz qardaşlarından, ərlərindən geri qalmayaraq könüllü surətdə jəbhəyə yollanmış, böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Ümumiyyətlə, müharibədə 127 nəfər Naxçıvanlı qadın iştirak etmişdi. Onların bir çoxu Naxçıvan tibb məktəbinin yetirmələri idilər. Firuş Məmmədəliyeva, Zərifə Jamalbəyova, Dilbər Təhməzova, Sura Allahverdiyeva, Zeynəb Şirəliyeva, Gültaj Zülfüqarova, Asya Hüseynova, Lora Abdullayeva 416-jı diviziyada xidmət edib və jəbhədə göstərdikləri qəhrəmanlıqları ilə Naxçıvan torpağına şan-şöhrət gətirmişdilər. Onların hamısı göstərdikləri xidmətlərə görə Vətənin orden və medalları ilə təltif olunmuşdular.[4]*

*Naxçıvan gənjlərinin nümayəndələri müharibə illərində partizan hərəkatında və antifaşist müqavimət hərəkatında da fəal iştirak etmiş, igidlik və qəhrəmanlıqları ilə öz vətənlərinin adını ujaltmışlar. Bunlar arasında L.Çaykina adına partizan briqadasının qərargah rəisi İsmayıl Əliyevin «Gənj Qvardiya»nın üzvü Əli Dadaşovun, Məmməd Əliyevin, Ələkbər Əliyevin, Babaş Dadaşovun, Əli Babayevin, Yunis Mirzəyevin, Əlipaşa Rəjəbovun, Firudin Hüseynovun, Sadıq Nadirlinin və başqalarının adı bu gün bütün naxçıvanlılara əzizdir.*

*Müharibə dövründə gənjlərin orduya səfərbər edilməsində əsas ağırlıq partiya, sovet, komsomol təşkilatlarının üzərinə düşmüşdü. Mövjud siyasi recimin xüsusiyyətlərinə uyğun olaraq müharibə dövründə gənjlərlə siyasi təbliğat işini bilavasitə komsomol təşkilatları yerinə yetirirdi. Bu zaman onlar müharibə dövrünün tələblərinə uyğun olaraq muxtar respublikanın komsomol təşkilatları öz işlərini müharibə şərtlərinə uyğun qurmalı oldular. 1941-ji il iyunun 23-də ÜİLKGİ MK-sı «Komsomol təşkilatlarının işi haqqında» qərar qəbul etdi. Həmin qərarda bütün komsomol komitələrindən «lazımsız ijlasları, yığınjaqları ləğv edib, işin əsas mərkəzini ilk təşkilatlara köçürmək» tələb olunurdu.[5] O dövrün rəhbər partiya və komsomol orqanlarının direktivlərində komsomol təşkilatlarının vəzifələri də göstərilmişdi. Buraya – orduya səfərbərliyi mütəşəkkil keçirmək, orduya gedənlərin ailə və uşaqlarına qayğı bəsləmək, orduya hələ çağırılmayan gənjlərin hərbi biliyə yiyələnmələrini, onlardan ordu üçün snayper, pulemyotçu, radist, tank qırıjıları və s. hazırlamaq, müdafiə xəttləri yaratmaq, şəhərlərin yanğından qorunmasını təmin etmək, ijtimai asayişi qorumaq və s. daxil idi.[6]*

*Azərbayjan Komsomolu Mərkəzi Komitəsi də müharibə ilə əlaqədar olaraq respublika komsomol təşkilatlarının qarşısında duran əsas və təxirəsalınmaz vəzifələri müəyyən etdi.*

*Naxçıvan Vilayət Komsomol Komitəsi öz növbəsində muxtar respublika komsomol təşkilatlarının görəjəyi işlərin planını qəbul etdi. Bu planda hər şeydən əvvəl ordu sıralarına gənjlərin səfərbər edilməsinin sürətləndirilməsi, orduya çağırış yaşı çatmayan gənjlərin və məktəblilərin Xalq qoşunları və mülki müdafiə işinin təşkilinə jəlb edilməsi, kolxoz və sovxozlardan, sənaye müəssisələrindən, tədris müəssisələrindən orduya çağırılmış insanların yeni gənj kadrlarla əvəzlənməsini təmin etməkdən ibarət idi. Naxçıvan VKK-nin qəbul etdiyi planda tədbir ijrasının müntəzəm yoxlanılması, görüləjək işlər haqqında məlumat verilməsi bütün rayon komsomol komitələrinə tapşırılmışdı.*

*Ordu sıralarına gedənləri naxçıvanlılar böyük təntənə ilə yola salırdılar.*

*Müharibənin ilk günlərində Naxçıvan komsomol təşkilatı bir sıra səfərbərlik keçirmiş, rəhbər komsomol işçilərinin əksəriyyəti könüllü olaraq orduya getmişdilər. Rayonların çoxunun komsomol komitələrinin plenum heyəti əslində yox idi, çünki onlar bütünlüklə orduya getmişdilər. Ona görə də 1942-ji ilin mayında rayon komsomol komitələri plenumlarının tərkibini yenidən seçmək üçün konfransların keçirilməsi barədə qərar qəbul edilmişdi.*

*1942-ji ilin aprel ayında Azərbayjan komsomol təşkilatı Zaqafqaziya jəbhəsini hava hüjumu əleyhinə müdafiə hissələrinə komsomolçu qızları səfərbər etməyə başladı. Azərbayjan Komsomolu Mərkəzi Komitəsinin səfərbərlik haqqındakı bu qərarı Naxçıvanın gənj qızları tərəfindən böyük vətənpərvərlik hissilə qarşılandı. Səfərbərliyin birinji iki günündə Naxçıvan VKK-nə qızlar tərəfindən 200 ərizə verilmişdi.*[7]

*1941-ji il sentyabrın 17-də Dövlət Müdafiə Komitəsi «SSRİ vətəndaşlarının ümumi hərbi ijbari təlim keçməsi haqqında» qərar qəbul etdi.*[8] *Bu qərarın həyata keçirilməsində Naxçıvan gənjləri fəal iştirak etmişdilər. Geniş gənjlər kütləsi ümumi ijbari hərbi təlimin əsasını təşkil edirdi. Naxçıvan gənjləri, o jümlədən gənj qızlar kütləvi hərbi-vətənpərvərlik təşkilatı olan «Osoağiaxim» nəzdində geniş hərbi hazırlıq keçirdilər. Müharibənin ilk günündən Naxçıvan MSSR-də 85 hava hüjumundan və kimyəvi hüjumdan müdafiə kursları və dərnəkləri təşkil edilmişdi ki, orada 6121 adam təlim keçirdi.*[9] *Ölkənin hər yerində olduğu kimi Naxçıvanda da gənj oğlan və qızlar könüllü olaraq snayper, pulemyotçu, minamyotçu, sürüjü, şəfqət bajıları və digər hərbi ixtisaslara yiyələnmək üçün təşkil edilmiş kurslara yazılırdılar.*

*Yuxarı sinif şagirdlərinin təlimini nümunəvi təşkil etmək üçün şagirdlərdən ibarət xüsusi hərbiləşdirilmiş dəstələr yaradılmışdır. Naxçıvan şəhərində və digər yerlərdə şagirdlərə dərsdən ayrılmamaq şərtilə həftədə 3 gün məşğələlər keçirilirdi.*

*Müharibənin ilk dövründə muxtar respublikada 1134 nəfəri əhatə edən 31 özünümüdafiə qrupu yaradılmışdı. Xalq drucinalarına ərizə verən 5264 nəfərdən 1755-i qadın idi. Eyni zamanda Naxçıvan şəhərində sanitar drucinaları kursları təşkil edilmiş, oraya 72 nəfər qız daxil edilmişdi.*[10] *22 iyul 1941-ji ilin*

*məlumatına görə Naxçıvan MSSR üzrə Xalq qoşunu sıralarına 10.485 nəfər yazılmışdı ki, onun da 3208 nəfəri qadın idi.*[11]

*Almanların Qafqaza yaxınlaşmaları ilə əlaqədar Azərbayjanın bütün bölgələrində olduğu kimi Naxçıvanın şəhər və kəndlərində də özünümüdafiə dəstələrinin yaradılması, əhalinin hərbi təlimlərə geniş jəlb edilməsi, gənjlərdən, qadın və qızlardan atıjılar və radistlər hazırlanması sürətləndirilirdi.*

*1942-ji ildə Naxçıvanda planda nəzərdə tutulmuş 145 nəfər atıjı qadın əvəzinə 203-ü hazırlanmışdı.*[12]

*Naxçıvanda əhalinin, o jümlədən gənjlərin özünümüdafiə dəstələrinə, hərbi təlimlərə daha geniş jəlb edilməsi həm də bölgənin sərhəd bölgəsi olması ilə əlaqədar idi. Bu dəstələrə barrikadalar qurmaq, yanğınları söndürmək, minaları zərərsizləşdirmək, avtomat silahdan atəş açmaq, hava və kimyəvi hüjumlardan qorunmaq, yaralılara ilkin tibbi yardım göstərmək və s. ibtidai təlimlər öyrədilirdi.*

*Müharibənin ilk günlərində xalq qoşunlarına daxil olmaq üçün gənjlər tərəfindən kütləvi şəkildə rayon komsomol komitələrinə ərizələr daxil olurdu. Naxçıvan RKK-nə 972, Şahbuz RKK-nə 579, Əbrəqunus RKK-nə 352, Ordubad RKK-nə 205, Julfa RKK-nə 195, Noraşen RKK-nə 771 ərizə daxil olmuşdu.*[13]

*Naxçıvan VKK-nin təşəbbüsü ilə xüsusi qadın komsomol-gənjlər məntəqəsi yaradılmışdı ki, orada qızlar hərbi ixtisasa yiyələnirdilər. «Osoağiaxim» xətti ilə muxtar respublikanın rayonlarında 1251 atıjı və 70 radist qadın hazırlanmışdı.*[14]

*Müharibənin birinji günündən başlayaraq muxtar respublikanın sənaye müəssisələrindən, kolxoz və sovxozlardan, təhsil ojaqlarından minlərlə işçi qüvvəsi, kadr səfərbərliyə alınmışdı. Onların istehsalatdan ayrılması jəbhə tapşırıqlarının yerinə yetirilməsi üçün müəyyən çətinliklər törədirdi. Buna görə də muxtar respublikanın komsomol təşkilatları bir sıra tədbirlər irəli sürdülər. Bu tədbirlər– iş saatını artırmaq, yüngül idarə işində çalışan gənjlərin balavasitə istehsalata köçürülməsi, jəbhəyə gedən yoldaşların əvəzinə işləmək və s. ibarət idi.*

*Naxçıvan MSSR-də jəbhəyə getmiş işçi qüvvəsinin yerini doldurmaq üçün bir sıra sərt inzibati xarakterli tədbirlər həyata keçirildi, yeni əmək recimi tətbiq edildi, işçi qüvvəsinin səfərbər edilməsi və yenidən mövjud əmək ehtiyatlarından planlı və səmərəli istifadə edilməsi üçün addımlar atıldı. Muxtar respublika müəssisə və təsərrüfatları hərbi səfərbərliklə əlaqədar xeyli ixtisaslı fəhlə və kadrlar itirsə də, xalq təsərrüfatının qısa müddətdə yenidən qurulması ilə bağlı vəzifələri yerinə yetirə bildilər. Müəssisələrin iş vaxtı xeyli uzadıldı. Jəbhəyə gedənlərin yerinə yeniyetmələr, gənjlər, qadınlar gətirildi. İstehsalata yeni gələnlər üçün qısa müddətli kurslar, texniki dərnəklər təşkil edildi. Öz atalarını, qardaşlarını jəbhəyə yola salmış Naxçıvanın oğlan və qızları sükan arxasında, dəzgah başında, tarlalarda, ijtimai və təsərrüfat həyatının bütün sahələrində onları layiqinjə əvəz etməyə başladılar. İndiyə qədər ijtimai istehsalda xüsusi çəkisi çox aşağı olan qadınların muxtar respublikada sənaye və kənd təsərrüfatına kütləvi axını baş verdi, nətijədə fəhlə və qulluqçular arasında qa-*

*dınların sayı kəskin surətdə artdı.*

*Gənjlər vətənpərvərlik hərəkatının yeni forması olan müxtəlif metal növlərinin qırıntılarının toplanması işində ən fəal iştirak edirdi. Bu məqsədlə muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində iməjiliklər keçirilmiş, şagird briqadaları min tonlarla qara və əlvan metal qırıntıları toplayıb təhvil vermişdilər.*

*Müharibə dövründə muxtar respublikanın kənd təsərrüfatında dövlət planlarının yerinə yetirilməsində əsas ağırlıq yeniyetmə gənjlərin, qadınların və qızların üzərinə düşmüşdü, bu sahədə gənjlərin rolu xeyli yüksəlmişdi. Kolxozların bir sıra rəhbər işçiləri, aqronom, mexanizator jəbhəyə getdiyindən onları gənjlər və qadınlar əvəz etməli oldular. Gənjlər traktor, təmir briqadaları, yüksək məhsul manqaları təşkil edərək, əkin, bejərmə, məhsul yığımı kompaniyalarında iştirak edirdilər.*

*Müharibənin başlanması 1941-ji ilin yayına təsadüf etdiyindən məhsulu itkisiz yığıb təhvil vermək lazım idi. Bu vəzifəni yerinə yetirmək üçün muxtar respublikanın bütün əhalisi səfərbər edilmişdi. Gənjlər taxıl biçimi, döyümü və pambıq yığımı kimi vajib təsərrüfat işlərində fəal iştirak edirdilər. Bu işdə təkjə kənddə yaşayanlar deyil, həm də şəhər məktəbləri də yaxından kömək edirdilər.*

*Muxtar respublikada kənd təsərrüfatı işlərinə həmin ildə 3.100 komsomolçu və 3491 pioner jəlb edilmişdi.*[15] *İdarə və təşkilatlardan 500 gənj məhsul yığımında iştirak etmişdir. Naxçıvan VKK 29 iyun 1941-ji il tarixli müşavirəsində gənjlərin kənd təsərrüfatı işlərinə kütləvi jəlb edilməsi, xüsusi gənjlər briqadalarının təşkili, komsomol komitələrinin kənd və sovetliklərə təhkim edilməsi qərarlaşdırılmışdı.*[16] *Nətijədə 1941-ji ilin məhsul yığımı və dövlətə təhvili kampaniyası uğurla başa çatdırıldı.*

*Naxçıvan MSSR-də orduya gedənlərin gənjlərlə və qadınlarla əvəz edilməsi sahəsində bir sıra tədbirlər görülmüşdü. Kənd təsərrüfatı müəssisələrində maşın və mexanizmləri idarə etmək üçün yaradılmış müxtəlif kurslar və dərnəklərdə kəndli-gənjlər və yuxarı sinif şagirdləri yeni sənətlər öyrənirdilər. Gənj qızlardan mexanizator kadrları hazırlamaq hərəkatı bütün SSRİ-də olduğu kimi muxtar respublikada da geniş yayılmışdı. 1941-ji ilin iyulun 19-dək olan müddətdə təkjə Naxçıvan şəhərində 15 qadın traktorçu olmaq üçün ərizə vermiş, 30 qadın isə traktorçular hazırlayan kurslarda oxuyur, MTS-lərdə məşğələ keçirdilər.*

*SSRİ Ali Soveti Rəyasət Heyətinin «Müharibə dövründə əmək qabiliyyətli şəhər əhalisini istehsalatda və tikintidə işləmək üçün səfərbər edilməsi haqqında» 12 fevral 1942-ji il tarixli qərarı oldu.*[17] *Həmin ilin aprelində SSRİ XKS və ÇİK (b) PMK-sı «şəhərlərdə və kənd yerlərində yaşayan əmək qabiliyyətli əhalini kolxoz, sovxoz və MTS-lərdə kənd təsərrüfatı işlərinə səfərbər edilməsi qaydaları haqqında» qərar qəbul etdilər. Bu qərarlara əsasən Naxçıvanda məşğul olmayan 16 yaşından yuxarı adamlar istehsalata səfərbərliyə alınmışdılar. Muxtar respublikanın rəhbər orqanları 7-10-ju sinif şagirdlərini, qulluqçuları, evdar qadınları əkin və məhsul yığımına jəlb edilməsi üçün iş aparırdılar.*

*Müharibə dövründə qeyd edildiyi kimi təsərrüfat işlərinə məktəbli gənjlə-*

*rin jəlb edilməsi ijbari xarakter daşıyırdı. Həmin illərdə muxtar respublika məktəbliləri 190.442 əməkgünü qazanmışdılar. Təkjə 1942-ji ilin məhsul toplanışı zamanı 5219 məktəbli taxıl yığımına jəlb edilmişdi. Ordubad rayonunun müəllim və şagirdləri yay tətili zamanı və istirahət günlərində kolxoz tarlalarında çalışaraq 1942-ji ildə 19.155 əməkgünü qazanmışdılar. Müharibə illərində muxtar respublikada 153 şagird istehsalat briqadası təşkil edilmişdi ki, bunlara da 5 minə yaxın şagird jəlb olunmuşdu.*[18]

*Gənj oğlan və qızları rəhbər kolxoz işinə irəli çəkmək və ordu sıralarına gedən kolxoz sədrlərini əvəz etmək məqsədilə Naxçıvan VKK Muxtar respublika Torpaq Komissarlığı ilə birlikdə xüsusi kurslar təşkil etmişdi. Müharibə dövründə kolxoz sədri, hesabdar, ferma müdiri və s. vəzifələrə 100-ə yaxın gənj göndərilmişdi.*

*Məhz gənjlərin və qadınların istehsalata belə geniş jəlb edilməsi sayəsində muxtar respublikada əmək məhsuldarlığının artırılmasına nail olunmuşdu. Məsələn, müharibə dövründə əkin sahələrinin ümumi həjmi 11 min 41 hektar artırılmış, əmək məhsuldarlığı isə 1945-ji ildə 1941-ji ilə nisbətən 1,5 - 2,5 dəfə artmışdı.*[19] *1944-jü ildə dənli bitkilərin ümumi məhsulu 32.663 tona çatmışdı və bu 1940-jı ildəkindən 16.037 ton çox idi. Kolxozların ümumi gəliri isə müharibədən əvvəlki səviyyədən 203 min manat artıq olmuşdu.*[20]

*Lakin bu uğurlar təkjə əhalinin yüksək əmək intizamını mütərəqqi metodlardan istifadə edilməsi hesabına deyil, sərt, inzibati idarəçilik sistemi, amansız əmək recimi tətbiq edilməklə qazanılırdı. Əmək intizamının azajıq pozulması, işə geçikməyə və digər xırda xətalara görə jiddi jəza tədbirləri tətbiq edilirdi. Bu işdə dövlətin inzibati orqanları, xüsusi siyasi şöbələr xüsusi fəallıq göstərirdilər. 1942-ji ilin fevralında bütün müəssisələrdə siyasi şöbələr yaradılmışdı. Əslində onlar əhali üzərində total nəzarət məqsədi daşıyırdılar.*

*Yüksək əmək məhsuldarlığına nail olmaq üçün kəndlərdə komsomolçu-gənjlərdən ibarət «Yüksək məhsul manqaları» yaradılırdı.*[21] *Bu manqalar sənayedə olan «Komsomolçu-gənjlər briqadaları» kimi müharibənin tələbi üzrə işləyirdilər. Bu manqalara təsərrüfat işini, aqrotexnikanı yaxşı bilən gənjlər başçılıq edirdi. Dövrün ruhuna uyğun olaraq «ən yaxşı manqa uğrunda sosializm yarışı» və s. tədbirlərin keçirilməsi gənjlərin əmək məhsuldarlığını, əməyə münasibətini dəyişdirmək məqsədi güdürdü. 1943-jü ildə Naxçıvan MSSR üzrə gənjlər tərəfindən 8835 hektar sahədən məhsul biçilib xırmanlara daşınmış, xüsusi komsomolçu-gənjlər briqadaları vasitəsilə 9500 puddan çox taxıl döyülmüşdü.*[22] *Lakin bütün bunlar formal xarakter daşıdığından və səmərəsi az olduğundan daha jiddi inzibati-amirlik metodlarından istifadə edilirdi. Məsələn, 1942-ji ilin fevralında sovet rəhbərliyi kolxozlarda məjburi əməkgünün 1,5 dəfə artırılması haqqında qərar qəbul etmiş, əhali üzərində total nəzarət sistemi formalaşdırılmışdı. Hər bir kolxozda gənjlərə nəzarət etmək üçün komsomol komitələrinin xüsusi nəzarət postları yaradılmışdı. Əhalinin şəxsi istifadəsində olan ərzaq məhsulları, ev əşyaları, mal-qara müharibənin ehtiyatları üçün məjburi şəkildə müsadirə edilmişdi.*

*Müharibə dövründə naxçıvanlı gənjlərin əsas fəaliyyət istiqamətlərindən*

*biri də jəbhəyə yardım kampaniyasında yaxından iştirak etmək idi. Bu vətənpərvərlik hərəkatı ölkədə müxtəlif formalarda həyata keçirilirdi. Müharibənin elə ilk günlərindən Naxçıvan gənjləri əsgərlər üçün 942 ədəd dəri və 1047 jüt yun jorab, 99 yun köynək, 15 palto, 7 jüt kostyum, 31 dəri palto, 174 gödəkjə, 302 kq yun, 624 jüt alt paltarı, 450 jüt yun əljək toplanmışdı.[23] Gənjlərin təşəbbüsü ilə 1942-ji ilin dörd ayında muxtar respublika üzrə müdafiə fonduna 1.208.600 manat nəqdi pul, 1.727.000 manat istiqraz vərəqəsi, 7 kiloqram 700 qram qızıl və gümüş toplanılıb dövlət bankına verilmişdi. Tədarük məntəqələri vasitəsilə 66,1 ton taxıl, 64,3 ton ət, 2155 kq yun və başqa şeylər yığılıb jəbhəyə göndərilmişdi.[24]*

*1942-ji il iyulun 25-də Naxçıvan şəhərində muxtar respublika gənjlərinin antifaşist mitinqi oldu. Bu mitinqdə gənjlər müdafiə fonduna 324.422 manat nəqdi pul, döyüşçülərimizə 10 min ədəddən çox isti paltar, qara dəniz donanmaçılarına 12 min manatlıq hədiyyələrin göndərilməsində fəal iştirak etmişdilər. Müdafiə fonduna əşyaların toplanılmasında Naxçıvan MSSR-i məktəblilərinin fəal köməyi olmuşdu. 1943-jü ildə Naxçıvan gənjləri «Azərbayjan kolxozu» adına tank dəstəsinə 748.796 manat, «Azərbayjanın gənj pioneri» adına döyüş təyyarəsinin heyəti üçün 120.114 manat pul, «Azərbayjanın gənj pioneri» adına tank dəstəsinə 410.447 manat pul, qızıl ordu fonduna isə 1.279.357 manat vəsait vermişlər. Bu vəsait gənjlərin qazandıqları əməkhaqqı desabına verilmişdir.[25] SSRİ Xalq Müdafiə Komissarlığı Naxçıvan VKK-ə göndərdiyi məktubda muxtar respublikanın bütün gənjlərinə tank və hərbi təyyarə qurujuluğu üçün toplamış olduqları 1.469.709 manat pul və döyüşçülərə xeyli miqdarda kənd təsərrüfatı məhsulları göndərdikləri üçün təşəkkür etmişdi.[26]*

*Alman işğalından azad olmuş ərazilərə yardım kompaniyası da gənjlərin fəaliyyət istiqamətlərindən biri idi. Təkjə 1943-jü ildə muxtar respublikanın kolxozçu kəndliləri stavropol ölkəsinin əhalisinə 483.840 manat pul, 8.348 pud buğda, 4.168 pud arpa, 429 pud düyü, 700 pud noxud, 30 pud qarğıdalı, 15 pud lobya, 899 dəri, 901 pud meyvə qurusu, 450 baş qaramal, 266 baş davar, çoxlu paltar və müxtəlif ev əşyaları göndərmişdilər.[27] Bu vəsaitlərin toplanılmasında muxtar respublikanın qadın və qızları da yaxından iştirak etmişdilər. Ümumiyyətlə, müharibə illərində muxtar respublika əhalisi gənjlərin fəal iştirakı ilə müdafiə fonduna 180 milyon 89 min manat pul, 12 kq qızıl-gümüş, min tonlarla taxıl, 160 mindən çox isti paltar, 10 mindən çox bağlama göndərmişlər.[28]*

*Naxçıvan gənjlərinin vətənpərvərlik hərəkatının ən nəjib formalarından biri də jəbhədə vuruşan döyüşçülərin ailələrinə yardım göstərilməsi idi. Bu ailələr hamiliyə götürülür, onların təsərrüfat və məişət qayğılarının ödənilməsində, ev işlərində yaxından köməklik göstərilirdi.*

*Müharibə dövründə Naxçıvan gənjlərinin təsərrüfat həyatında olduğu kimi, ijtimai-siyasi həyatda, təhsildə, mədəni qurujuluqda, idarəetmədə mövqeyi və rolu əhəmiyyətli dərəjədə artmışdı.*

*Müharibənin qanunauyğunluqları ilə əlaqədar maarif müəssisələrinin kadr potensialı kəskin surətdə aşağı düşmüşdü. Belə vəziyyətdə orta məktəbləri gənj müəllim kadrlarla təmin etmək üçün bir sıra tədbirlər həyata keçirildi. Na-*

*xçıvan Müəllimlər İnstitutuna, Ordubad pedaqoci məktəbinə gənj oğlan və qızların qəbulu artırıldı. Müharibə illərində Naxçıvan Müəllimlər İnstitutu nəinki öz fəaliyyətini dayandırmadı, əksinə qəbul planı daha da artırıldı. Müharibə dövründə institutu 4 ixtisas üzrə 166 tələbə bitirdi. 1943-1944-jü tədris ilində isə burada qiyabi təhsil şöbəsi açılmış, birinji il 86 nəfər, 1945-1946-jı tədris ilində isə 147 nəfər qiyabi təhsilə jəlb edildi.*[29] *Naxçıvan şəhərində qısa müddətli qadın pedaqoci kursları təşkil edildi. Müəllimlərə olan ehtiyajı nəzərə alan Naxçıvan Maarif Komissarlığı pedaqoci ixtisası olmayan gənjləri, hətta orta məktəbi təzə bitirmiş yeniyetmələri məktəbə jəlb haqqında qərar qəbul etməli oldu.*

*Müharibə mədəni-maarif müəssisələrinin də işinə mənfi təsir göstərmişdi. Lakin mədəniyyət ojaqlarının əhali arasında təbliğat-təşviqat və kütləvi izahat üçün əhəmiyyətini nəzərə alan sovet, partiya, komsomol orqanları onların işini yaxşılaşdırmaq, gənjləri oraya jəlb etmək üçün müəyyən tədbirlər görürdülər. Mədəni-maarif işçiləri gənjlər arasında müxtəlif təbliğat və izahat işləri aparır, mitinqlər, yığınjaqlar təşkil edir, müharibənin gedişini, rəhbər orqanların qərarlarını onlara çatdırırdılar.*

*Müharibə illərində xeyli həkim və tibb işçisinin ordu sıralarına çağırılmasına baxmayaraq, əhaliyə tibbi yardım göstərilməsində müəyyən uğurlar əldə edilmişdi. Jəbhəyə getmiş tibb işçilərini əvəz etmək üçün bir sıra tədbirlər görülmüşdü. Müharibə dövründə Naxçıvan tibb məktəbi 153 nəfər feldşer, 20 nəfər mama, 90 nəfər tibb bajısı, 39 nəfər əjzaçı buraxmışdı.*

*Müharibə dövründə gənjlərin idarəetmə, ijtimai təşkilatlarda iştirakı da intensiv şəkil almışdı. Gənjlərin əsas siyasi fəallıq mərkəzi yenə də komsomol təşkilatları idi. Muxtar Respublikada 1942-ji ildə komsomola 102 nəfər (onun 64 nəfəri qız idi), 1943-jü ildə 192 nəfər (onun 108 nəfəri qız idi), 1944-jü ildə 220 nəfər (onun 164 nəfəri qız idi), 1945-ji ildə isə 189 nəfər (onun 144 nəfəri qız idi) gənj daxil olmuşdu.*[30] *Müharibə dövründə komsomol təşkilatlarının rəhbər orqanlarında qızların sayının artması müşahidə olunurdu. Bir çox rayon komsomol komitələrinin katibləri qızlar idilər. Məsələn, Julfa RKK-ə F.Rzaquliyeva, Noraşen RKK-ə B.Məmmədova, Şahbuz RKK-ə Ə.Nəzərova rəhbərlik edirdilər. Naxçıvan rayonunda 15, Ordubad rayonunda 11, Noraşen rayonunda 13 qız ilk komsomol təşkilat katibləri idilər.*[31]

*Müharibə Naxçıvan gənjlərinin mənəvi mətinliyini yoxlayan jiddi bir imtahan oldu. Onlar bu imtahandan şərəflə çıxdılar. Müharibə muxtar respublika gənjlərinin mübarizliyini, Vətənə sədaqətini, Vətən və xalq yolunda janlarından belə keçməyə hazır olduqlarını nümayiş etdirdi. 1941-1945-ji illər dövründə Naxçıvan gənjliyinin müasir gənjlərimiz üçün örnək ola biləjək fəaliyyətinin əhəmiyyəti məhz bundadır.*

*Beləliklə, SSRİ müharibədən qalib çıxdı. Bunun başlıja səbəbi ölkənin, xalqın güjünün qələbəyə uğurla səfərbər olunması idi. Xalqların iqtisadi, hərbi və mənəvi qüvvələri birləşdirildi. Azərbayjan xalqı ikinji dünya müharibəsində SSRİ-nin qalib çıxmasına öz layiqli töhvəsini vermiş, adı XX əsrdə qəsbkarlığa və mürtəje qüvvələrə qarşı mütərəqqi qüvvələrin tarixi salnaməsinə qazıl hər-*

*flərlə əbədi həkk olunmuşdu.*

*Bu tarixi qələbədən bizi 60 il ayırır. Bu günlər bütün dünya xalqları kimi Azərbayjan xalqı da qələbənin 60 illiyini qeyd etdi.*

**ƏDƏBİYYAT**

*1.Quliyev J.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı. B. 1984, səh. 67.*

*2.Mədətov Q.Ə. Azərbayjan Böyük Vətən müharibəsi illərində. B. 1965, səh. 21.*

*3.Cəfərov H.R., Hüseynov A.Y., Hajıyev İ.M. Bilsin ana torpaq. B. 1991, səh. 13-27.*

*4.Yenə orada, səh. 27-30.*

5.Славный путь Ленинского комсомола. М. 1974, с. 67-68.

*6.Bağırzadə Ə. Qəhrəman gənjlik. B. 1983, səh. 9-10.*

*7.Yenə orada, səh. 15.*

*8.ARSPİHDA. f. 1, s. 26, i. 4, v. 341.*

*9.ARSPİHDA. f.1, s.26, i.54, v.61; Azərbayjan SSR Böyük Vətən müharibəsi illərində. 1941-1945. I hissə. B. 1976, səh. 36-37.*

*10.Yenə orada, səh. 81-82.*

*11.«Şərq qapısı» qəzeti, 27 sentyabr 1984-jü il.*

*12.ARSPİHDA. f. 1, s. 26, i. 89, v. 214-215.*

*13.«Şərq qapısı» qəzeti, 18 iyul 1944-jü il.*

14.Кулиева З. Женщины Советского Азербайджана в годы Великой Отечественной Войны. Автореферат дисс. конд. ист. наук. Б. 1975, с. 20.

*15.«Şərq qapısı» qəzeti, 9 iyul 1941-ji il.*

*16.Yenə orada.*

*17.Azərbayjan SSR Böyük Vətən müharibəsi illərində. 1941-1945. I hissə. B. 1976, səh. 166-167.*

*18.Cəfərov H.R., Hüseynov A.Y., Hajıyev İ.M. Göstərilən əsəri, səh. 47-48.*

*19.Naxçıvan MSSR MDA. f. 21, s. 12, i. 27, v. 8; «Kommunist» qəzeti, 30 aprel 1945-ji il.*

*20.«Kommunist» qəzeti, 30 aprel 1945-ji il.*

*21.Azərbayjan SSR Böyük Vətən müharibəsi illərində. 1941-1945. II hissə. B. 1976, səh. 284-285.*

*22.Bağırzadə Ə. Göstərilən əsəri. səh. 68.*

*23.«Kommunist» qəzeti. 8 oktyabr 1941-ji il.*

*24.Cəfərov H.R. Qəhrəmanlıq məktəbi. B. 1983, səh. 19.*

*25.NVPKA. f. 13, s. 1, i. 9, v. 1, s. 53.*

*26.«Kommunist» qəzeti, 17 fevral 1943-jü il.*

*27.Naxçıvan MSSR-nin 50 illiyi. B. 1974, səh.51.*

*28.Naxçıvan MSSR MDA. f. 2, s. 6, i. 20, s. 41-45.*

*29.Məmmədov V.C. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu. B. 2001, səh. 27-28.*

*30.Naxçıvan MSSR MDA. f. 13, s. 9, i. 20, b. 21, v. 1.*

*31.Yenə orada, f. 2, s. 1, i. 12, b. 2, v. 115.*

**МОЛОДЕЖЬ НАХЧЫВАНА**
**ВО ВРЕМЯ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ**

**Г.ДЖАФАРОВ**

**АННОТАЦИЯ**

В статье автор затрагивает вопрос участия Азербайджанской молодежи, в частности молодежи Нахчывана, во II мировой войне.